# Azərbaycan Respublikasının Təhsil Nazirliyi
# Mingəçevir Dövlət Universiteti

"TƏSDİQ EDİRƏM"

Mingəçevir Dövlət Universitetinin
rektoru, dosent Şahin Bayramov

10.07 2020-ci il

*Mingəçevir Dövlət Universitetinin Elmi Şurasının 10 iyul 2020-ci il tarixli (pr.№13) 57 nömrəli qərarına əsasən qəbul edilmişdir.*

# Kafedralar haqqında
# ƏSASNAMƏ

## Ümumi müddəalar

Bu Əsasnamə Mingəçevir Dövlət Uiversitetinin (MDU) kafedralarının fəaliyyətini tənzimləmək üçün hazırlanmışdır. Əsasnamə “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununa, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 21 yanvar 2011-ci il tarixli 9№-li “Ali təhsil müəssisəsinin Nümunəvi Nizamnaməsi” haqqında Qərara, Azərbaycan Respublikası Təhsil Nazirliyinin 11 oktyabr 1994-cü il tarixli 595 №-li “Ali məktəblərin kafedraları haqqında müvəqqəti Əsasnamə” haqqındakı əmrə, Azərbaycan Respublikasının Təhsil Nazirliyinin Kollegiyasının 15.11.2017 tarixli 5/5 nömrəli Qərarı ilə təsdiq edilmiş “Ali təhsil müəssisələrində kafedra müdiri, dekan və dekan müavini vəzifələrinin tutulması Qaydaları”na “Mingəçevir Dövlət Universitetinin Nizamnaməsinə və digər qanunvericilik sənədlərinə uyğun hazırlanmışdır.

Kafedra müvafiq fakültənin tərkibində MDU-nun tədris-elm struktur bölməsi olub, ali təhsilin dövlət standartının ixtisaslar üzrə hazırlığın məzmununa və səviyyəsinə qoyulan minimum tələblər əsasında tədris, metodiki və elmi-tədqiqat, elmi-pedaqoji və elmi işçilərin hazırlanması işlərini həyata keçirir.

Kafedranın təşkili, ləğv edilməsi və ya yenidən təşkili mövcud qaydada Mingəçevir Dövlət Universitetinin (MDU) Elmi Şurasının qərarı əsasında Rektorun əmri ilə həyata keçirilir. Kafedraların fəaliyyəti Azərbaycan Respublikası qanunvericiliyinə, “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununa, “Ali məktəblər haqqında Əsasnamə”yə, “Mingəçevir Dövlət Universitetinin Nizamnaməsi”nə uyğun həyata keçirilir. Kafedranın ştat cədvəlinə kafedra müdiri, professorlar, dosentlər, baş müəllim, müəllim və assistentlər, tədris-köməkçi və digər kateqoriyadan olan işçilər daxildirlər. Bu vəzifələrə təyinolunma rektor tərəfindən qanunvericilikdə nəzərdə tutulmuş qaydada həyata keçirilir.

Seçki və ya təyinatla tutduğu müddət başa çatan, eləcə də vakant professor, dosent, baş müəllim, müəllim və assisent vəzifələrinə müsabiqə elan olunur. Kafedranın və onun tərkibindəki digər struktur qurumların Əsasnaməsi MDU haqqında Əsasnaməyə uyğun olaraq hazırlanır və MDU-nun Elmi şurası tərəfindən təsdiq edilir.

Kafedranın kollektiv idarəetmə orqanı onun iclasında öz səlahiyyətlərini həyata keçirən kafedra kollektividir. Kafedra iclaslarının tərkibi müzakirə olunan məsələlərə əsasən müəyyən edilir və ayda 1 dəfədən az olmayaraq (zəruri olduqda növbədənkənar iclaslar ola bilər) keçirilir.

## Kafedranın idarə olunması

Kafedranın fəaliyyətini MDU-nun rektoru tərəfindən təsdiq olunmuş fəaliyyət planları, kafedranın əməkdaşlarının fəaliyyəti isə həmin planlara uyğun olaraq tərtib edilmiş fərdi iş planları üzrə iş təşkil edilir. Kafedra öz vəzifələrini yerinə yetirərkən MDU-nun struktur bölmələri ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

Kafedra öz fəaliyyətində rəhbər tutur:

- Azərbaycan Respublikasının Konstitusiyasını;
- “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununu;
- Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını;
- Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarlarını;
- Azərbaycan Respublikası Təhsil Nazirliyinin əmrlərini, kollegiyasının qərarlarını;
- Ali təhsilin dövlət standartını;
- MDU-nun Nizamnaməsini və normativ sənədlərini;
- MDU və fakültə Elmi şuralarının qərarlarını;
- MDU-nun rektorunun əmrlərini;
- Tərkibinə daxil olduğu fakültənin Əsasnaməsini.

**Kafedranın əsas vəzifələri**

Kafedranın vəzifələri aşağıdakı kimi müəyyənləşdirilir:

- bütün təhsil formaları üçün tədris planlarında nəzərdə tutulmuş mühazirələrin, seminar, praktiki və digər növ dərslərin yüksək elmi - nəzəri səviyyədə aparılmasını təmin etmək;
- tələbələrin sərbəst və müstəqil işlərinə, kurs işləri və layihələrinə, referatlara rəhbərliyi həyata keçirmək;
- təhsilalanların təlim nəticələrinin cari, dövri, yekun (imtahanların)
- qiymətləndirilməsi və yekun attestasiyaları təşkil etmək və keçirmək;
- tədris və istehsalat, elmi-tədqiqat və elmi-pedaqoji təcrübələrə rəhbərliyi, bakalavr buraxılış işi və magistrlik dissertasiyalarına rəhbərliyi həyata keçirmək;
- kafedraya təhkim olunmuş fənlər üzrə tədris proqramlarını işlənib hazırlanmaq və müvafiq qaydada təsdiq üçün təqdim etmək, həmçinin digər kafedraların hazırladıqları tədris proqramlarına rəy vermək;
- dərslik, dərs vəsaitləri, metodiki rəhbərlik və göstərişlər, əyani vəsaitlər və s. hazırlamaq;
- elmi-tədqiqat işləri (ETİ) aparmaq, tamamlanmış ETİ-lərin müzakirəsi, istehsalata tətbiq edilməsi və nəşr edilməsi üçün rəy vermək, tələbələrin elmi-tədqiqat işlərinə rəhbərlik etmək;
- kafedra əməkdaşlarının tədris, elmi-metodiki və digər işlərinin, fərdi planlarının
- hazırlanması və həyata keçirilməsini təmin etmək;
- respublikanın və xarici ölkələrin ali məktəblərinin ayrı-ayrı kafedralarının, professor-müəllim heyətinin qabacıl iş təcrübəsinin öyrənilməsi və yayılması, yeni işə başlayan və gənc müəllimlərə pedaqoji təcrübə toplamaqda köməklik göstərilməsi işini təşkil etmək;
- tədris prosesində müasir texniki vasitələrdən istifadə edilməsinə dair tədbirlər hazırlayıb həyata keçirmək;
- kafedra əməkdaşlarının, həmçinin digər iddiaçıların dissertasiyalarını müzakirə edib rəy vermək;
- kafedranın məzunları ilə daimi əlaqəni təşkil etmək;
- təhsilalanlar arasında tərbiyə işini təşkil etmək və s.

**Kafedranın əsas funksiyaları**

Kafedranın funksiyaları aşağıdakılardır:

- Kafedra ayda bir dəfədən az olmayaraq öz iclasını keçirir, kafedranın işini təşkil edir və müəllimlərin tədris yükünü müəyyən edir;
- Kafedra tədris olunan fənlər üzrə tədris metodik vəsaitlərin (proqramlar, dərslik, dərs vəsaiti və metodik vəsaitlər) təminatını həyata keçirir;
- Kafedra elmi seminar və konfrans mövzularını müəyyən edir, onun keçirilməsini və digər ali məktəblərin, elmi-tədqiqat institutlarının, müəssisə və təşkilatların iştirakını təşkil edir;
- Kafedra digər kafedralarla və təşkilatlarla qarşılıqlı əlaqələr yaradır;
- Tələbələrin, magistrantların və doktorantların tədqiqat işlərinə, təcrübələrinə, metodik vəsaitlərə rəy verir, onların tətbiqinə və ya nəşrinə dair təkliflər verir;
- Kafedra universitetin müvafiq struktur bölmələri ilə birlikdə təhsilalanlarla əlaqədar məlumat bazası yaradır;
- Kafedra fəaliyyət istiqaməti üzrə araşdırmalar, təhlillər aparır, analitik materiallar hazırlayır, müvafiq təkliflər verir, layihələrdə, konfrans və seminarlarda iştirak edir.

Kafedraya mövcud qanunvericilik tərəfindən müəyyən olunmuş qaydada seçilmiş və ya təyin olunmuş müdir rəhbərlik edir. Kafedraya ümumi rəhbərlik, bir qayda olaraq elmlər doktoru, professor və ya fəlsəfə doktoru elmi dərəcəsi və

dosent elmi adı olan kafedra müdiri tərəfindən həyata keçirilir. Kafedra müdiri vəzifəsini tutmaq üçün elan olunmuş müsabiqədə müvafiq ixtisas üzrə professorlar, eləcə də ən azı 5 il elmi-pedaqoji stajı olan elmlər və fəlsəfə doktorları iştirak edə bilərlər. Kafedra müdirinin ayrı-ayrı sahələr üzrə (tədris, elm, tərbiyə və s.) ictimai əsaslarla müavinləri olur.

**Kafedra müdirinin hüquqları**

Kafedra müdirinin aşağıdakı hüquqları vardır:

- səlahiyyəti daxilində sərəncamlar və tapşırıqlar vermək;
- əməkdaşların fəaliyyətini qiymətləndirmək;
- əməkdaşlarının vəzifə borclarının yerinə yetirilməsi keyfiyyətini yoxlamaq;
- əməkdaşları həvəsləndirmək və ya təşəkkür elan etmək;

**Kafedra müdirinin vəzifələri**

Kafedra müdiri aşağıdakı vəzifələri yerinə yetirir:

- Kafedranın işini planlaşdırır və təşkil edir, onun fəaliyyətinə rəhbərlik edir;
- Təhsilin bütün formaları üzrə mühazirələrin, seminar-məşğələlərin, laboratoriya və s. təşkili və keçirilməsində kafedranın professor-müəllim heyətinin və digər əməkdaşlarının fəaliyyətinə rəhbərlik edir;
- Kafedranın professor-müəllim heyətinin dərs yükü bölgüsünü aparır, onların fərdi iş planlarını və sillabuslarını təsdiq edir;
- Kafedrada təsdiq olunan fənlər üzrə müəyyən olunmuş qaydada tədris proqramlarının (tədris metodik vəsaitlərin) işlənib hazırlanmasına rəhbərlik edir;
- Tələbələrin sərbəst işlərinə, istehsalat təcrübəsinə, yekun buraxılış imtahanlarına, magistr və doktorantların dissertasiya işlərinin müdafiəsinin təşkilinə rəhbərlik edir;
- Professor-müəllim heyətinin tədrisi fənnin məqsəd və təlim nəticələrinə uyğun aparmasına nəzarət edir;
- Tələbələr arasında tərbiyəvi işlərin təşkilinə rəhbərlik edir;
- Kafedra iclaslarını çağırır, onlara sədrlik edir, onların qərarlarını təsdiq edir;
- Kafedranın fəaliyyəti barədə hesabat təqdim edir;
- Kafedranın ştat tərkibi barədə təklif verir;
- Universitetdə və kənar təşkilatlarda kafedranı təmsil edir;
- Kafedranın fəaliyyətinə görə kafedranın kollektivi fakültə, universitetin Elmi Şurası və rəhbərlik qarşısında məsuliyyət daşıyır.

**Kafedra əməkdaşlarının hüquqları**

Kafedra əməkdaşının hüquqları aşağıdakılardır:

- normal əmək, elmi-pedaqoji iş və təhsil şəraiti, müasir standartlara cavab verən texnologiyalarla təmin olunmaq;
- təhsil müəssisəsinin nizamnaməsinə uyğun olaraq, təhsil prosesinin təşkilində və idarə olunmasında fəal iştirak etmək;
- tədrisin formasını, metodlarını və vasitələrini sərbəst seçmək;
- şərəf və ləyaqətinə hörmətlə yanaşılmasını tələb etmək;
- təhsil müəssisəsində vəzifə tutmaq və müvafiq hallarda seçkili vəzifələrə seçmək və seçilmək;
- ixtisasını artırmaq, yeni ixtisas almaq, staj keçmək, ixtisas və elmi dərəcəsini yüksəltmək;
- müəyyən edilmiş hallarda və qaydada mükafatlandırılmaq və təltif olunmaq;

• uzun müddət qüsursuz çalışan və onun elmi-pedaqoji həyatında mühüm xidmətləri olan professorlara aylıq əməkhaqqı və əlavələr, digər güzəştlər və imtiyazlar saxlanılmaqla, akademik və inzibati vəzifədən azad olunmaq şərtilə, məsləhətçi-professor vəzifəsini tutmaq;
• qanunvericilikdə nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.

## Kafedra əməkdaşlarının vəzifələri

Kafedra əməkdaşının vəzifələri aşağıdakılardır:

- təhsil proqramlarının mənimsənilməsini təmin etmək;
- təhsilalanları elmi fəaliyyətə cəlb etmək;
- təhsil sahəsində dövlət siyasətinin həyata keçirilməsində iştirak etmək;
- təhsilalanlarda fəal vətəndaş mövqeyi formalaşdırmaq, onları vətənpərvərlik və azərbaycançılıq ruhunda tərbiyə etmək, müstəqil həyata və əmək fəaliyyətinə hazırlamaq;
- şəxsi nümunəsi ilə təhsilalanlarda Azərbaycan Respublikasının müstəqilliyinə, Konstitusiyasına və qanunlarına, dövlət rəmzlərinə, Azərbaycan xalqının tarixinə, dilinə, mədəniyyətinə, adət və ənənələrinə, milli və ümumbəşəri dəyərlərə, cəmiyyətə, ətraf mühitə hörmət və qayğı hisləri aşılamaq;
- pedaqoji etika və əxlaq normalarına riayət etmək, müəllim nüfuzunu yüksək tutmaq, ziyalılıq nümunəsi göstərmək;
- təhsil alanların şərəf və ləyaqətinə hörmət etmək;
- gəncləri fiziki və psixi zorakılığın bütün formalarından qorumaq, onları zərərli vərdişlərdən çəkindirmək;
- ixtisas və elmi-pedaqoji səviyyəsini yüksəltmək, elmi araşdırmalar aparmaq, əlavə məşğələlər keçirmək;
- qanunvericiliklə müəyyən edilmiş qaydada attestasiyadan keçmək;
- qanunvericilikdə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

**Kafedra əməkdaşı:**

- əmək intizamına və etik davranış qaydalarına riayət etməyə;
- vəzifə borclarını, fərdi iş planlarını, rəhbərliyin tapşırıqlarını yerinə yetirməyə;
- kafedra, fakültə, universitet tədbirlərində iştirak etməyə görə məsuliyyət daşıyır.

## Kafedranin tədris fəaliyyəti

Kafedrada tədris dili - Azərbaycan dilidir. Kafedra ali təhsilin bakalavriat və magistratura səviyyələri üzrə ali təhsil proqramlarını (kurikulumları) həyata keçirir. Ali təhsil proqramlarına və onların həyata keçirilməsinə qoyulan ümumi tələblər Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı ilə təsdiq edilmiş "Ali təhsil pilləsinin dövlət standartı və proqramı" ilə müəyyənləşdirilir. Kafedra dövlət təhsil standartı çərçivəsində ali təhsil proqramlarında müvafiq dəqiqləşdirmələr apara bilər. Təhsil proqramlarının elmi-metodiki, informativ, maddi-texniki vəsaitlərlə təminatı lisenziya və akkreditasiyaya qoyulan normativ tələblərə uyğun olmalıdır. Ali təhsilin səviyyələrində ixtisaslar üzrə təhsil proqramlarında ayrı-ayrı fənn bölmələri nəzərdə tutulur. Məcburi auditoriya dərslərinin maksimal həcmi bu təhsil proqramları ilə müəyyənləşdirilir.

Kafedrada hazırlanan Ali təhsil pilləsinin ixtisasları (ixtisaslaşmaları) üzrə təhsil proqramları müvafiq tədris-metodiki sənədlər əsasında həyata keçirilir. Bu sənədlərin formaları Azərbaycan Respublikasının Təhsil Nazirliyi və MDU tərəfindən müəyyənləşdirilir. Ali təhsilin məzmunu tədris prosesinin planlaşdırılmasını, onun həyata keçirilməsinin forma və metodlarını, tədris yükünün həcmini, tədris mərhələlərinin (semestrlərin) müddətini, tədris növlərini (mühazirə, məşğələ və s.),

ayrı-ayrı fənlərin həcmini və ixtisaslar üzrə təhsil proqramlarına qoyulan tələbləri əhatə edir. Tədris prosesinin planlaşdırılması və təşkili tədris planları (nümunəvi işçi və fərdi) və fənlər üzrə işçi proqramları MDU tərəfindən müəyyənləşdirdiyi sənədlər forması və struktur əsasında həyata keçirilir.

Fənn proqramları ixtisaslar üzrə ali təhsil proqramlarının tələblərinə uyğun olaraq kafedra tərəfindən hazırlanır, müzakirə olunduqdan sonra müvafiq qaydada fakültə elmi şurası və Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən təsdiq edilir. Fənn proqramları üzrə işçi proqramlar (sillabuslar) kafedranın professor-müəllimləri tərəfindən hazırlanır, kafedra iclasında müzakirə olunur və təsdiq edilir.

Kafedrada tələbələrin sərbəst işlərinin təşkili Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi tərəfindən təsdiq edilmiş müvafiq qaydalar, MDU tərəfindən təsdiq edilmiş təlimatla tənzimlənir.

Kafedrada ixtisaslar üzrə tədris prosesinin təşkili dövlət təhsil standartına uyğun hazırlanmış və MDU-nun rektoru tərəfindən təsdiq edilmiş tədris planı əsasında həyata keçirilir. Kafedrada dərs növlərinə mühazirə, seminar, nəzəri və praktiki məşğələləri, sərbəst işləri, elmi tədqiqat işləri, kurs işi (layihəsi), referat və s. daxildir.

## Kafedranın elmi fəaliyyəti

Kafedrada mütəxəssis hazırlığı elmlə təhsilin vəhdəti əsasında həyata keçirilir. Kafedrada ali təhsil səviyyələri üzrə elmi araşdırmalar aparılır. Kafedranın elm sahəsində fəaliyyəti onun profilinə uyğun elmin müvafiq sahələrinin inkişafına, elmi tədqiqatların nəticələrinin tədris prosesinə tətbiqinə yönəldilir.

Aparılan elmi-tədqiqat işləri kafedranın profilinə uyğun olaraq fundamental və tətbiqi xarakter daşıyır. Elmi fəaliyyət professor-müəllim heyətinin işinin tərkib hissəsidir. Kafedrada aparılan elmi-tədqiqat işlərinin nəticələrini tədris prosesinə (mühazirə, məşğələ, seminar dərslərinə, kurs və buraxılış işlərinə, magistr dissertasiyalarına) tətbiq olunmasını və monoqrafiyalar, elmi məqalələr, dərsliklər, dərs vəsaitləri, metodik vəsaitlər şəklində dərc olunmaqla və elmi forumlarda məruzə edilərək yayılmasını təşkil edirlər. Kafedrada aparılan elmi-tədqiqat işlərinin nəticələri professor-müəllim heyətinin müəyyən vəzifələrə seçkisi və təyin olunması zamanı nəzərə alınır.

Kafedrada aparılan elmi araşdırmalar dövlət büdcəsi, müxtəlif fondlar, təhsil müəssisələrinin büdcədənkənar və sifarişlər əsasında daxil olan vəsaitləri, eləcə də şəxsi və qrantlar hesabına həyata keçirilə bilər.